***Torpaqlarımız işğaldan azad edildikdən sonra bu ərazilərdə bərpa işləri yüksək səviyyədə həyata keçirilir. Əlbəttə, bu layihələrin icrası üçün böyük xərc tələb edilir. Prezident İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, biz bu gün işğaldan azad olunmuş torpaqlarımızı bərpa etmək üçün bütün imkanlara sahibik. Lakin ərazilərimizin ermənilər tərəfindən minalanması və həmin torpaqların təhlükəsizliyinin təmin edilməsi bu gün qarşıda duran ən mühüm problemlərindəndir. Məlum məsələdir ki, bərpa işlərini görmək üçün əvvəlcə ərazinin təhlükəsizliyi təmin edilməlidir. Bu fikirləri dövlət başçısının Şuşa səfəri ilə bağlı danışan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti İbrahimxəlil İbrahimov bildirdi. İbrahimxəlil müəllim dedi:***



# Şuşanın bərpası sürətlə aparılır



–Səfər zamanı ölkə başçısına Şuşa şəhərinin baş planı təqdim olundu. Burada ən önəmli məsələlərdən biri də baş planı hazırlanarkən Şuşanın tarixi orijinallığının qorunub saxlanılmasıdır. Belə ki, dövlətimizin başçısı müharibədən sonra Şuşaya ilk dəfə səfər edərkən bu mənada xüsusi tapşırıqlar vermişdi. Çünki bu əzəmətli qala-şəhər təkcə Qarabağın deyil, bütün Azərbaycanın mədəniyyət, incəsənət paytaxtıdır. Təqdim edilən baş planda Şuşa şəhərində yeni tikiləcək yaşayış binaları, eləcə də qorunub saxlanılacaq tarixi binalar, abidələr öz əksini tapıb. Baş plan hazırlanarkən, mövcud relyefə uyğun olaraq, şəhərin yaşıllıqlarını və landşaftını qoruyub saxlamaq məqsədilə yaşıl dəhlizlərin yaradılması nəzərdə tutulub.

Həmçinin 6 məhəllədən ibarət yaşayış massivinin layihəsi Prezident İlham Əliyevə təqdim edildi. Layihədə hər məhəllədə yaşayış üçün təxminən 2000 nəfər əhali nəzərdə tutulub. Məhəllələrdə üç, dörd və beş mərtəbəli evlərdən ibarət olacaq binalar ənənəvi memarlıq üslubu ilə tikiləcək. Daha sonra dövlətimizin başçısı 1-ci məhəllənin təməlini qoydu.

Ölkə başçısına məlumat verildi ki, Şuşada uzunluğu 17 kilometrdən çox olan yeni yolun inşasına başlanılıb. Ümumiyyətlə, işğaldan azad edilən ərazilərlə bölgələrimiz arasında əlaqəni bərpa etmək üçün ən mühüm məsələlərdən biri yol infrastrukturunun yaradılması və inkişafıdır. İlk gündən atılan addımlara, həyata keçirilən layihələrə nəzər salsaq, görərik ki, bu sahədə yetərincə məsafə qət edilib. Yolların önəmini daha yaxşı anlamaq üçün təkcə Zəngəzur dəhlizinin gələcəkdə bölgəyə nə qədər iqtisadi səmərə verəcəyinə diqqət etmək kifayətdir.

Hər birimiz yaxşı xatırlayırıq ki, ermənilər uzun illər boyu bu torpaqlardan öz ərazilərinə yol çəkməyə, əlaqələr yaratmağa çalışırdılar. Azərbaycan tərəfi buna ciddi etirazlarını bildirsə də, istər ATƏT-in Minsk qrupu, istərsə də digər beynəlxalq təşkilatlar məsələyə laqeyd yanaşırdılar. Vəziyyət getgedə ciddiləşirdi. Ermənilər bu yollar vasitəsilə qanunsuz köçürmə siyasəti həyata keçirməyə çalışır, yerlərini möhkəmləndirmək istəyirdilər. II Qarabağ müharibəsi isə onların şirin xülyalarını kabusa çevirdi. 10 noyabr Bəyanatında qəbul edilən maddələr, eləcə də dövlət başçısının məşhur “Bəs Cəbrayıla yol çəkirdin?” ifadəsi də məsələnin ciddiliyindən xəbər verir. Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan bu barədə demişdir: “ Yol mədəniyyətdir, yolları olmayan ölkə mədəniyyətdən bəhs edə bilməz”. Prezident İlham Əliyev də hər zaman çıxışlarında yolların önəmindən bəhs edir. Bu mənada qeyd edə bilərik ki, müharibədən sonra həyata keçirilən ilk layihələrdən biri də Əhmədbəyli–Füzuli–Şuşa yolunun salınmasıdır

Bütün bunlar onu göstərir ki, Azərbaycan bərpa işlərini həyata keçirməyə qadirdir. Bizim güclü potensialımız var və qısa müddət ərzində böyük peşəkarlıq və məharət tələb edən işlər görmüşük. Əlbəttə, bu işlər davam etdirilir və biz inanırıq ki, yaxın zamanda işğaldan azad edilən torpaqlarımız insanların məskunlaşması, yaşaması üçün hazır vəziyyətə gətiriləcək.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .-2021.- 31 avqust.- S.9.